DÜNYA XƏBƏRLƏRİ

# Zelenski Nyu-Yorkda Trampla görüşəcək

Sentyabr 21, 2026




V.Zelenski və D.Tramp iyulun 8-də NATO-nun Ankara sammiti çərçivəsində görüşmüşdülər

Ukrayna prezidenti **Volodimir Zelenski** ABŞ prezidenti **Donald Tramp**la telefonla danışıb. O, X sosial şəbəkəsindəki rəsmi hesabında bu haqda yazıb.

**“Vacib söhbət oldu, bir çox mövzunu müzakirə etdik”,** – Zelenski bildirib.

O, həmçinin iki prezidentin Nyu-Yorkda şəxsən görüşməklə bağlı razılığa gəldiyini açıqlayıb.

**“Bu görüş çox şeyi dəyişə bilər”,** – Ukrayna prezidenti vurğulayıb.

“Gərginliyin azaldılması və təhlükəsizliyin əsas məsələləri – enerji və ərzaq təhlükəsizliyi, insanların həyatının qorunması ilə bağlı ideyalarımız var. Biz Amerika komandası ilə birlikdə işləyirik, gerçəkdən ciddi addımlar atmağa hazırıq”, – Zelenski yazıb.

Zelenski Trampa Rusiyaya qarşı sanksiyalar nəzərdə tutan “Lindsi Qrem qanun layihəsi”ni imzaladığına görə təşəkkür edib.

Paylaşımda iki dövlət başçısının görüşünün dəqiq vaxtı göstərilməyib. Zelenski daha əvvəl sentyabrın 20-dən sonra Trampla görüşməyə ümid etdiyini bildirmişdi.

ABŞ prezidenti sentyabrın 22-də Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyasında çıxış edəcək. Onun həmin gün bir sıra ikitərəfli görüşləri də planlaşdırılıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur